15- 16 iyun 2021-ci il | Çərşənbə axşamı

QƏHRƏMAN DÖYÜŞÇÜLƏRİMİZİ TANIYAQ

# Şəhid baş leytenant Həsən Rzazadə

***Bu gün 44 günlük Vətən Müharibəsində şəhid olan qəhrəmanlarımızdan biri Rzazadə Həsən Vüqar oğlunun doğum günüdür. Yaxınları, doğmaları, döyüşçü yoldaşları ilk dəfə şəhidimizin doğum gününü onun özü olmadan yad edirlər. O, Vətən uğrunda xidmət etd, torpaq uğrunda döyüşdü,uşaqlıq arzusuna çatdı. Onu heç kim bu müqəddəs məqsədindən çəkindirə bilməzdi. Yaxınlarının sözlərinə görə, əslən Zəngilan rayonundan olan Həsən uşaqlıqdan hərbə maraq göstərib. Azərbaycan sülhməramlı qüvvələrində xidmət edib.***



**Atası Vüqar Rzayevin** sözlərinə görə, Vətən Müharibəsi başlayan ilk gündən oğlu könüllü olaraq döyüşlərə qatılıb. O, Zəngilan, Qubadlı və Cəbrayıl istiqamətində gedən döyüşlərdə iştirak edib. Bir neçə vacib yüksəkliyin azad edilməsində onun birbaşa xidmətləri olub. Oğlum torpaqlarımızın alınması ilə bağlı əməliyyatlar başlayacağı təqdirdə, dəfələrlə döyüşlərə qatılmaq arzusunda olduğunu bildirmişdi. Axırıncı dəfə oktyabrın 29-da Laçın uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid oldu. Mən də zabitəm. Oğlum görə bilmədiyim tapşırığı yerinə yetirdi. Həsən daim Zəngilanın azad olunmasında onun da xidmətinin olmasını arzulayıb. Elə bu arzusuna çatdıqdan sonra da şəhid olub.

**Bəhmən Razazadə, şəhidin qardaşı:** "Qardaşım məndən iki yaş böyük idi, amma mənə və digər qardaşlarıma həmişə dayaq olub. Böyük qardaşdan əlavə bizə ağsaqqal kimi yanaşırdı. Hansısa problemim olanda heç deməyə ehtiyac qalmırdı. Özü həmişə başa düşürdü".

**Doğmaları ilk dəfədir, şəhidin doğum gününü onsuz yad edirlər**



**Döyüş yoldaşları, komandirləri deyirlər ki, Həsən qorxmaz və güclü bir insan xarakterinə malik idi.** Xidmət etdiyi hərbi hissədə onun əsgəri olmuş Həsən Baxşalıyevin sözlərinə görə, baş leytenant Həsən Rzazadə hər zaman şəxsi heyətə münasibəti, nizam-intizamı ilə seçilirdi. Həmişə torpaqlarımız uğrunda Vətən Müharibəsinin başlanmasını səbirsizliklə gözlədiyini bildirirdi. Biz onunla tək zabit-əsgər münasibəti yox, həm də yaxşı dost-yoldaş olmuşuq. Bu münasibət hərbi xidmətimi başa vurduqdan sonra da davam edib. Vətən Müharibəsində ayrı-ayrı istiqamətlərdə döyüş əməliyyatlarında iştirak etsək də, daim əlaqə saxlayırdıq. Mən Laçından olsam da, o torpaqları heç vaxt görməmişdim. Ordumuzun Laçın rayonuna daxil olduğu xəbərini də ilk olaraq elə mənə baş leytenant Həsən Rzazadə verdi. Onun şəhid olduğu xəbərini alarkən döyüşçü yoldaşları olaraq düşməndən qisasının artıqlaması ilə alacağımıza söz verdik. Bu sözümüzün də üstündə durduq. Baş leytenant Həsən Rzazadənin azad görmək istədiyi, canını bu yolda qurban verdiyi Vətənimizi 30 illik düşmən işğalından qurtardıq".

Qeyd edək ki, Azərbaycan Ordusunun baş leytenantı olan Həsən Rzazadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Laçının azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Həsən Rzazadə noyabrın 1-də Laçın döyüşləri zamanı şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğaldan azad olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 09.12.2020-ci il tarixli Sərəncamına əsasən Həsən Rzazadə "Qarabağ" ordeni ilə təltif edilib. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Həsən Rzazadə ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

H.Rzazadə dövlət başçısının sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə",. "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medallarına da layiq görülüb. Hərbi xidməti dövründə isə şəhid baş leytnant "Əfqanıstanda sülhməramlı missiyaya görə", "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları ilə də təltif olunub.

Şəhidlər ölmür, unudulmur. Onlar daim bizim qəlbimizdə, yaddaşımızda yaşayır və yaşayacaq.

*Sabir Baxşalıyev*